# AZƏRBAYCANDA MULTİKULTURALİZM

*Biblioqrafiya*

BAKI - 2016

**KBT** £19: Э38(2A)+£ПL153.0(2A)
**UOT** 016: 297(479.24)+008(479.24)

**Layihənin rəhbəri**

**Əbülfəs Qarayev,**
*Azərbaycan Respublikasının Mədəniyyət vəTurizm naziri, fəlsəfə üzrə fəlsəfə doktoru*

**Elmi redaktor və ön sözün müəllifi**
**Kamal Abdullayev,**
*Azərbaycan Respublikasının Millətlərarası, Multikulturalizm və Dini məsələlər üzrə Dövlət müşaviri, akademik*

**ixtisas redaktoru və buraxılışa məsul:** **Kərim Tahirov,**
*professor, Əməkdar mədəniyyət işçisi*

**Rəyçilər:** **Etibar Nəcəfov,**
*fəlsəfə elmləri doktoru, professor*

**Azad Məmmədov,**
*Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin direktoru, professor*

**Redaktor:** **Gülbəniz Səfərəliyeva,**
*Əməkdar mədəniyyət işçisi*

**Azərbaycanda multikulturalizm:** biblioqrafiya /layih. rəhb. Ə.Qarayev; elmi red. K.Abdullayev; ixt. red. və burax. məsul K.Tahirov; rəy.: E.Nəcəfov, A. Məmmədov; red. G.Səfərəliyeva.- Bakı, 2016.- 504 s.

**ISBN** 978 99 52 404 44 9

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına müvafiq olaraq Milli Kitabxana tərəfindən tərtib edilmiş “Azərbaycanda multikulturalizm” adlı biblioqrafik göstəriciyə il ərzində keçirilən tədbirlər haqqında dövri mətbuatda çap edilmiş materiallar və mövzuya uyğun kitablar daxil edilmişdir.

Kitab tədqiqatçı-alimlər, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**© M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2016**

# 2016-cı ilin Azərbaycan Respublikasında “Multikulturalizm ili” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Tarixi İpək yolunda yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilmişdir. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması müasir dövrdə respublikamızda gerçəkləşdirilən siyasətin tolerantlıq prinsiplərinə bu gün də sadiq qalmasının bariz nümunəsidir.

Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun 2016-cı ildə Bakı şəhərində keçirilməsi barədə qərar qəbul edilməsi dünya ölkələrinin Azərbaycandakı multikultural mühitə olan münasibətinin real ifadəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədi ilə qərara alıram:

1. 2016-cı il Azərbaycan Respublikasında “Multikulturalizm ili” elan edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Azərbaycan Milli Elmlər Akademiyasının təkliflərini nəzərə alaraq, 2016-cı ilin Azərbaycan Respublikasında “Multikulturalizm ili” elan edilməsinə dair tədbirlər planını bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 11 yanvar 2016-cı il**

# Redaktordan

Tarixin bütün dövrlərində ölkəmizdə bu gün multikulturalizm adlandırdığımız sosial münasibətin mövcudluğu və davamlılığını şərtləndirən dinc birgəyaşayış ənənəsini, tolerantlıq, qarşılıqlı hörmət və ehtirama söykənən köklü münasibətləri örnək göstərə bilərik. Bunun nəticəsidir ki, Prezident İlham Əliyev 2016-cı ili Azərbaycanda “Multikulturalizm ili” elan edib.

## Azərbaycanda multikulturalizm

Azərbaycan Milli Kitabxanasının hazırladığı “Azərbaycanda multikulturalizm” adlı fundamental biblioqrafik göstərici də bu əlamətdar hadisəyə həsr edilib. Biblioqrafik göstərici 5 hissədən ibarətdir: I hissə - Azərbaycançılıq ideologiyası - milli birliyin əsası kimi; II hissə - Milli-mədəni müxtəliflik, etnik qruplar - dili, mədəniyyəti və incəsənəti; III hissə - Tolerantlıq - Azərbaycanda dini etiqad azadlığının təmin edilməsi; IV hissə - Multikulturalizm Azərbaycanda həyat tərzidir; V hissə - Köməkçi göstəricilər.

Mövzuya uyğun olaraq ədəbiyyat bir neçə bölmə və ayrı-ayrı hissələr daxilində yarımbölmə altında qruplaşdırılmışdır. Bölmə və yarımbölmələrdə materiallar xronoloji prinsiplə, daxildə isə əlifba sırasına uyğun olaraq toplanmışdır. Vəsaitdən istifadəni asanlaşdırmaq məqsədi ilə sonda Azərbaycan, rus və ingilis dillərində müəlliflərin əlifba göstəricisi tərtib olunmuşdur. Biblioqrafik göstərici kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Göstərici haqqında rəy və təkliflərini bildirən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirərək, təklif və rəylərini M.F.Axundov adına Milli Kitabxanaya göndərmələrini xahiş edirik.

**Ünvan:** AZ-1000, Bakı şəh., Xaqani küç. 57;
**E-mail**: contact@anl.az; **URL**: www.anl.az

# Multikulturalizm Azərbaycanda həyat tərzi və dövlət siyasətidir

Azərbaycan Prezidenti İlham Əliyevin 2016-cı ili ölkəmizdə "Multikulturalizm ili" elan etdikdən sonra insanlarımız nəinki öz daxilinə nəzər saldı, həmçinin öz keçmişinə bir daha diqqət yetirdi, dünyada hökm sürən müxtəlif prosesləri dəyərləndirdi və bir daha əmin oldu ki, vaxtilə multikulturalizm siyasi xəttinin sistemliliyini təmin edən Ulu Öndər Heydər Əliyev uzaqgörənliyi ilə Azərbaycanın uğurlu gələcəyi üçün çox möhtəşəm, işıqlı bir siyasi platforma qurub.

Ölkə Prezidentinin sərəncamı ilə qəbul edilən Tədbirlər Planına müvafiq olaraq il ərzində çox böyük işlər görüldü. Azərbaycan multikulturalizm modelinin öyrənilməsi və dünyada təbliği amalı ilə hansı ölkədə, hansı məkanda olduqsa, Azərbaycan multikulturalizmi barədə, Azərbaycan həqiqətləri haqqında söhbət açarkən o söhbətin, o ünsiyyətin əsasının artıq qoyulmuş olduğunu gördük və həyata keçirmək istədiyimiz işlər münbit zəmində cücərməyə başladı. Bu münbit zəmini Azərbaycan dövləti, xüsusən Azərbaycan Prezidenti İlham Əliyev dünya siyasi proseslərindəki misilsiz əməli fəaliyyəti ilə artıq yaratmışdı. Bu zəmini Heydər Əliyev Fondu, onun prezidenti Mehriban xanım Əliyeva xarici ölkələrdə həyata keçirdiyi, bəşəri dəyərlərə verdiyi töhfələrlə yaratmışdı. Bu münbit zəmini qəlbində öz Prezidentinə inam və sədaqət, dinindən və millətindən asılı olmayan Azərbaycan insanı yaratmışdı.

Bu gün dünyada multikulturalizm siyasəti ilə bağlı iki qütbün formalaşmasını görməmək mümkün deyil.

Birinci qütbü bədbin qütb adlandıra bilərik. Onu 2011-ci ildə Böyük Britaniyanın sabiq Baş naziri Devid Kemeron formalaşdırdı və bütün dünyaya bəyan etdi ki, Avropada multikulturalizm siyasəti müxtəlif mədəniyyətlərin bir-biri ilə inteqrasiya olmaqdan imtina etməsi səbəbindən iflasa uğradı. Bu, həqiqətən, bədbin nəticə idi və zamanın göstərdiyi kimi, həm də qorxulu sonuclara - qarşıdurmalara, kataklizmlərə, fəlakətlərə gətirib çıxardı.

Digər qütbü isə nikbin qütb adlandıra bilərik və bunun təntənəsini bu gün biz Azərbaycanda görürük. Əlbəttə ki, nikbin qütbün beynəlxalq aləmdə əsl siyasi memarı Azərbaycan Prezidenti İlham Əliyevdir - bunu təkcə biz demirik, bunu dünyanın qabaqcıl, insanpərvər, sülhməramlı, qaralı-ağlı, müxtəlif dinə və məzhəbə qulluq edən, müxtəlif millətlərə mənsub olan, özünü bəşər övladı sayan yüz minlərlə, milyonlarla daxilən azad, ruhən böyük, qəlbən geniş insanlar deyir. Bunu artıq ənənəyə dönmüş Beynəlxalq Humanitar Forumun

üzvləri söyləyir. Bunu mədəniyyətlərarası dialoqun təntənəsi sayılacaq və memarı Prezident İlham Əliyev olan Bakı Prosesinin iştirakçıları deyir. Bunu onlarla xarici ölkə universitetlərində "Azərbaycan multikulturalizmi" dərsinin gənc dinləyiciləri və müəllimləri bəyan edir.

"Multikulturalizm ili" elan edilərkən ölkə Prezidenti tərəfindən dəqiq siyasi və ideoloji hədəflər göstərilmişdi. Azərbaycan müxtəlifliklərdən qaynaqlanmış möhtəşəm eyniliyi ilə bu siyasi-ideoloji-mənəvi hədəflərə doğru irəlilədi. Cəmiyyətin, hökumətin bütün zümrələri, qurumları, institutları həmahəng, bir-birini tamamlayan addımlar atdılar. Əslində, bütün Azərbaycan bir möhtəşəm addım atdı və bütün dünya bir daha inandı ki, xalqla Prezidenti təkcə siyasi amillər deyil, yüksək mənəvi, insani amillər birləşdirir. "Multikulturalizm ili" bu birliyin yeni rakursdan daha bir təzahürünə çevrildi.

Eyni zamanda, "Multikulturalizm ili" Azərbaycan Prezidentinin bəşəri dəyərlərə münasibətini bir daha sərgilədi, onun siyasi xadim kimi qəlbini bir daha bütün genişliyi ilə dünyaya açdı, onun öz xalqının, onun tarixinin, ədəbiyyatının, dilinin, mədəniyyətinin vurğunu olduğunu hər kəsə göstərdi. Azərbaycanda yaşayan hər bir millətin, dinin nümayəndəsinə özününkü qədər hörmət və ehtiramını bir daha sübut etdi.

Prezidentin bu münasibətinin ölkə daxilindəki bütün konfessiya və millətlərə bərabər şəkildə paylanmasının xüsusi əhəmiyyəti var. Məhz belə bir siyasi xətt ölkənin multikultural təhlükəsizliyini təmin edir və ölkədaxili əmin-amanlığın, ölkə xaricində isə özünəinamın təməlini möhkəmlədir. Multikulturalizm siyasətinin bariz təzahürü həm də multikultural təhlükəsizliyin qorunmasına yönəlmiş belə bir Prezident iradəsidir desək, heç də səhv etmərik.

Rəqəm və faktların dilinə keçsək, ilk növbədə, onu qeyd etmək olar ki, "Multikulturalizm ili" ilə əlaqədar 2016-cı il martın 11-də imzalanmış geniş, çoxşaxəli tədbirlər planı tam olaraq həyata keçdi. Bu tədbirlər planında ölkədə və xaricdə elmi-metodoloji konfransların, "dəyirmi masa"ların, seminarların, festivalların, konsertlərin, tamaşaların, sərgilərin, müsabiqələrin, yay və qış multikulturalizm məktəblərinin keçirilməsi, "Azərbaycan multikulturalizmi" fənninin proqramının yaradılması və dərsliyinin hazırlanması, müxtəlif xarici və ölkə universitetlərində bu fənnin tədrisi, multikulturalizmin nəzəri-praktiki məsələlərinə, tarixi və müasir aspektlərinə həsr olunmuş məqalə və monoqrafiyaların nəşri, xaricdə və ölkədə Azərbaycan multikulturalizminin dayaq nöqtələrinin yaranması və bir sıra başqa məsələlər öz əksini tapmışdı.

Beləliklə, çoxşaxəli multikulturalizm hərəkatı Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasının daha bir effektli yolunu müəyyənləşdirdi. Xüsusilə, İsveçdə, İngiltərədə, Almaniyada, İtaliyada, Fransada, Rusiyada Qafqaz Müsəlmanları İdarəsi sədrinin, rus pravoslav kilsəsinin rəhbərliyinin, katoliklərin nümayəndələrinin, udilərin dini rəhbərlərinin, dağ və Avropa yəhudilərinin rəhbərlərinin və digər dini, milli icmaların üzvlərinin yerli konfessiya

və dövlət xadimləri ilə faydalı görüşlərini qeyd edə bilərik.

Ölkə daxilində AMEA institutlarında, universitetlərdə, məktəblərdə keçirilən "dəyirmi masa"lar, seminarlar cəmiyyətin ən müxtəlif təbəqələrinin ürəkdolusu fikir və ideya bölüşdüyü məkanlara çevrildi.

Ölkə Prezidentinin 2014-cü ildə yaratdığı Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin də fəaliyyəti məqsədyönlü oldu. Bu Mərkəz ilin əvvəlindən bu günə qədər 15 xarici ölkədə - Portuqaliyada, İtaliyada, Almaniyada, Rusiyada, Gürcüstanda, İndoneziyada, Litvada, Polşada, Çexiyada, Bolqarıstanda, İsveçrədə və başqalarında, həmçinin 36 Azərbaycan universitetində "Azərbaycan multikulturalizmi" adlı fənnin tədrisini həyata keçirdi. Onu da qeyd etmək lazımdır ki, əgər əvvəllər biz xarici universitetləri belə bir fənnin tədrisinin vacibliyinə inandırmağa çalışırdıqsa, bu gün bizə həm artıq əlaqə qurduğumuz universitetlərdən, həm də tamamilə yeni universitetlərdən təkliflər gəlir. Azərbaycanı öyrənmək, onunla əlaqə yaratmaq istəyən xarici tədris ocaqlarının sayı semestrdən-semestrə artır. Bu, o deməkdir ki, həmin ölkələrin gənclərini ölkəmizə bağlayan xətlər möhkəmlənir. Həmin universitetlərin tələbələri Azərbaycan multikulturalizmini öyrənirlərsə, buna xüsusi həvəsləri varsa, deməli, Azərbaycanın tarixini, ədəbiyyatını, mədəniyyətini, etnoqrafiyasını, müasir siyasi-ictimai həyatını, Azərbaycan həqiqətlərini öyrənirlər. Əsas məqsəd bu tələbələrin Azərbaycana olan maraqlarını Azərbaycana olan sevgiyə çevirməkdir.

Lakin biz bununla işimizi bitmiş hesab etmirik. Bilavasitə ölkə rəhbərliyinin tövsiyəsi ilə həmin xarici tələbələr Azərbaycanla bağlı nəzəri biliklərə yiyələndikdən sonra biz onları ildə iki dəfə - yayda və qışda Azərbaycana, yay və qış multikulturalizm məktəblərinə dəvət edirik. Onlar vətənimizin müxtəlif bölgələrində olub Azərbaycan həqiqətlərini öz gözləri ilə yerindəcə görürlər. Bu multikulturalizm məktəblərini maraqlı edən həm də odur ki, bir sıra Azərbaycan universitetlərinin tələbələri də bu tədbirdə iştirak edir. Eyni zamanda, onların qonaq olduqları İsmayıllı, Qusar, Qəbələ, Xaçmaz, Zaqatala, Oğuz, Şəki, Bakı gəncləri də prosesdən kənarda qalmırlar. Onlar üçün xüsusi proqramlar hazırlanır, dərslərə həm ölkəmizdən, həm də xaricdən müəllimlər, mədəniyyət, elm, siyasət xadimləri dəvət edilir. Belə şəraitdə yaranmış dostluqlar bu gün də davam edir.

Gənclər görür və inanırlar ki, Ulu Öndərin dediyi kimi, Azərbaycanın güc qaynağı onda yaşayan xalqların gücündən yaranır. Onlar əsrlər boyu zülmə baş əyməyən, nəhayət, məhrumiyyətlər hesabına öz əbədi azadlığına qovuşan, müstəqilliyini əldə edən qürurlu bir xalqın müxtəlif adət-ənənələri ilə yaxından tanış olurlar və həqiqətən də onların əvvəlki, hətta bəzi halda soyuq marağı coşqun sevgi ilə əvəz olunur. Elə bunun üçün də bizim onlarla əlaqəmiz sistemli bir fəaliyyət perspektivini nəzərdə tutur.

Gələcəkdə universitet fəaliyyətindən sonra da bu gənclər Azərbaycanın dostları kimi bizim yanımızda olacaqlar, bunun üçün konkret proqram-layihələr

hazırlanır. Bircə onu demək yetərli sayıla bilər ki, son yay məktəbində xarici universitet gəncləri Azərbaycanın Gənc Dostları Klubunu yaratdılar - onun həmsədrləri litvalı tələbə ilə yunanıstanlı tələbə oldu. Bu rəsmi klubun artıq saytı fəaliyyət göstərir. Klubun 200-ə yaxın üzvü var. Ən vacibi odur ki, Azərbaycana qarşı hər hansı ədalətsiz hücum olursa, Azərbaycanı ürəkdən sevən bu gənclər hamıdan əvvəl haqsızlığa cavab verirlər. Bu gün Azərbaycanın qədirbilən gənc dostları Azərbaycanı bizdən əvvəl qorumağa hazırdırlar. Azərbaycan Prezidentinin göstərdiyi konkret siyasi-ideoloji hədəfin çox vacib bir nəticəsi də budur.

Ötən il BBMM-in xaricdə filiallarının yaranmasının və artıq ilk addımlarını atmasının şahidi olduq. Bu gün Mərkəzin Drezden, Lissabon, Roma, Yekaterinburq, Moskva, İsrail, Moldova, Sofiya filialları öz ətrafına ölkələrinin tanınmış mütəxəssislərini toplamaqda və Azərbaycanla əlaqələrini bu perspektiv xətt üzrə möhkəmlətməkdədirlər.

"Multikulturalizm ili" ərzində Azərbaycanın bir sıra şəhər və bölgələrindəki qurumlarında yaddaqalan proqram xarakterli tədbirlər keçirildi. Təhsil Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Gənclər və İdman Nazirliyi, Xarici İşlər Nazirliyi, Heydər Əliyev Fondu, AMEA, Qafqaz Müsəlmanları İdarəsi, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu, ictimai və dövlət təşkilatları, televiziya komitələri, yaradıcı təşkilatlar, qəzetlər, saytlar - hər biri "Multikulturalizm ili"nə öz töhfəsini verdi. Cəsarətlə demək olar ki, Azərbaycan Prezidentinin "Multikulturalizm ili" ilə bağlı həm ölkəyə, həm də dünyaya ötürdüyü siyasi, mənəvi çağırış ünvanına çatdı. Ən ucqar Azərbaycan kəndində də, məscid, kilsə, sinaqoqlarda da xalqımızın bu möhtəşəm dəyəri müzakirə obyektinə çevrildi. Ən müxtəlif bölgələrdə insanlarımız bu istiqamətdəki siyasi dəstəyi yüksək qiymətləndirdilər. Ən müxtəlif ölkələrdən - Amerikadan, İngiltərədən, Fransadan, Almaniyadan, İspaniyadan, İtaliyadan, Portuqaliyadan, Rusiyadan, Türkiyədən, İsraildən, Misirdən, Gürcüstandan, İndoneziyadan, Çexiyadan, Polşadan və başqa ölkələrdən multikulturalizm xətti ilə ölkəmizə gələn qonaqlar Azərbaycan multikultural siyasətindən ağızdolusu heyranlıqla bəhs etdilər, öz ölkələrində də belə siyasi kursun vacibliyini önə çəkdilər, multikulturalizmin Azərbaycan modelinin öz ölkələrində coşqun təbliğatçılarına çevrildilər.

2016-cı ildə nəşr sahəsində də xeyli iş görülmüşdür. Qəzet və sayt səhifələrində, ayrı-ayrı kitablarda, jurnal və toplularda multikulturalizm həm elmi-nəzəri, həm tarixi, həm mədəni, həm bölgələr üzrə, həm də müasir siyasi-ictimai baxımdan sərf-nəzər edildi. BBMM tərəfindən "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" adlı son dərəcə əhəmiyyətli kitab çap olundu. On əsrlik Azərbaycan ədəbiyyatı tarixində ən müxtəlif klassik şair və yazıçılarımızın müxtəlif əsərlərində, dastan və nağıllarımızda başqa dinin, başqa millətin nümayəndə və rəhbərlərinə hörmət dolu münasibət, sevgi və ehtiram sərgiləndi-

yi bu kitab artıq rus və ingilis dillərində də nəşr edilib.

2016-cı ildə "Multikulturalizm" adlı rüblük jurnalın nəşrinə də başlanıldı. Jurnal Azərbaycan multikultural dəyərlərinin dünyada, dünya təcrübəsinin isə Azərbaycanda yayılmasını nəzərdə tutur. Bu jurnal vasitəsilə Azərbaycan multikultural əhvalının energiyasının dünyaya yayılması prosesi gələn illərdə də davam edəcək.

"Multikulturalizm ili"ndə Azərbaycan Milli Kitabxanasının həyata keçirdiyi layihələr də çoxşaxəli və Azərbaycan multikulturalizm modelinin sistemli öyrənilməsi və təbliği baxımından əhəmiyyətli olmuşdur. Milli Kitabxana ölkəmizin müxtəlif regionlarında fəaliyyət göstərən mədəniyyət ocaqlarında, kitabxanalarda "Multikulturalizm ili"nə həsr olunmuş tədbirlər keçirmişdir. Multikulturalizmə dair ədəbiyyatın toplandığı geniş kitab sərgisinin və "Multikulturalizm Azərbaycanın həyat tərzidir" mövzusunda daimi fəaliyyət göstərən guşənin yaradılması bu baxımdan təqdirəlayiqdir.

Tədbirlər Planının icrası ilə əlaqədar Milli Kitabxana Mədəniyyət və Turizm Nazirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi ilə birgə "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" kitabının və "Multikulturalizm" jurnalının Bakıda, Ağcabədidə, Lənkəranda, Qubada, Gəncədə və respublikamızın digər regionlarında ictimaiyyət nümayəndələrinin iştirakı ilə təqdimat mərasimlərini keçirmişdir.

"Multikulturalizm ili" ilə əlaqədar Milli Kitabxananın həyata keçirdiyi layihənin son mərhələsində Azərbaycan Milli Kitabxanasının tərtib etdiyi "Azərbaycanda multikulturalizm" adlı oxucuya təqdim edilən bu biblioqrafiyanı xüsusi qeyd etmək lazımdır. İl ərzində ölkə ərazisində müvafiq mövzuya dair çap olunan bütün ədəbiyyatı və il boyu keçirilən tədbirlər haqqında dövri mətbuat səhifələrində və məcmuələrdə dərc olunan bütün materialları əhatə etməklə mövzuya dair 6 minə yaxın mənbəni özündə ehtiva edən bu fundamental biblioqrafiya kitabxana əməkdaşlarının gərgin əməyinin nəticəsidir. Vəsaitdə milli birliyimizin əsasını təşkil edən, Ulu Öndər Heydər Əliyevin banisi olduğu azərbaycançılıq ideologiyasından başlayaraq, ölkəmizdəki etnik qrupların tarixinə, mədəniyyətinə, incəsənətinə, həmçinin nəzəri və praktik baxımdan tolerantlığa və multikulturalizmə aid külli miqdarda ədəbiyyat öz əksini tapmışdır. Əslində bu böyük bir mənəvi dövrün salnaməsidir desək, səhv etmərik.

Əminəm ki, bütün bunlar hələ son deyil, multikulturalizm mövzusu təkcə təqvim ili ilə bitmir, bu kampaniya xarakteri daşıyan mövzu deyildir və mən inanıram ki, illər keçəcək, cəmiyyətimiz zaman-zaman multikulturalizm mövzusuna qayıdılacaqdır və bu zaman Milli Kitabxananın hazırladığı bu fundamental biblioqrafiya elmi işçilərə, mütəxəssislərə, istənilən oxucuya bu mövzuları öyrənməkdə yaxından kömək edəcəkdir.

Ümumiyyətlə, "Multikulturalizm ili" çərçivəsində ölkəmizdə və xaricdə görülən işlər onu göstərdi ki, böyük siyasi müdrikliklə mənəvi dəyərlərimizin

yaşamasına, xalqın, millətin, dövlətin adının uca tutulmasına şərait yaradan Azərbaycan Prezidenti intəhasız uzaqları gördü. Nəticədə, xalqımıza, ölkəmizə siyasi, mənəvi faydalar gətirən mətləblərin üzə çıxmasına real şərait yaratdı. Biz, heç şübhə etmirik ki, bu gün də yeni hədəflərin, yeni ideallarын astanasındayıq. 2016-cı il artıq geridə qaldı, "Multikulturalizm ili" təqvim ili olaraq sona çatdı. Amma biz inanırıq ki, təqvim illəri xalqın canında, ruhunda yaşayan zəngin potensialın ifadəsi üçün maneə ola bilməz. Multikultural əhval - başqasına şəfqət, mərhəmət, ehtiram, özünü özgədən ayırmamaq dünya xalqlarının ulu mənəvi dəyərlər xəzinəsinə bizim verə biləcəyimiz, əcdadlarımızın qanı ilə qanımıza keçən mənəvi saflıq, ləyaqət, şərəf hissləridir. Azərbaycan xalqı onları xüsusi bir coşqunluqla yenə də qoruyub yaşadacaq.

Bu gün bütün dünya görür ki, Azərbaycan necə dəyişir. Bu gün təkcə Bakı, onun mənzərəsi deyil, ölkəmizin bütün şəhərləri, kəndləri, küçələri, meydanları, tikililəri, yolları dəyişir. Amma dəyişən təkcə bunlar deyil, bununla yanaşı, Azərbaycan insanı dəyişir, mənən, daxilən, ruhən dəyişir. Bu insan ictimai mənafeyi hər şeydən uca tutmağa başlayır. Bu insan bayrağına, dövlətinə, himninə, Prezidentinə məhəbbətini, böyük və zəngin keçmişinə sədaqətini artıq böyük bir şərəf və ləyaqətlə özündə yaşadır. Bu insan həm öz xalqını, həm də dünya xalqlarını sonsuz bir məhəbbətlə sevir. Həm milli, həm də bəşəri dəyərlərin keşiyində durur. Bunu görməmək, görməzliyə vurmaq artıq mümkün deyil. 2016-cı ilin Azərbaycanda baş vermiş multikultural təntənəsi bunu bir daha sübut etdi.

**Kamal Abdulla,**
*Azərbaycan Respublikasının Millətlərarası,*
*Multikulturalizm və Dini məsələlər üzrə*
*Dövlət müşaviri, akademik*

# Görkəmli şəxsiyyətlər multikulturalizm haqqında

Tolerantlıq, dözümlülük çox geniş anlayışdır. O, həm insani münasibətlərin, həm insan cəmiyyətində gedən proseslərin, həm də dövlətlərarası, millətlərarası, dinlərarası münasibətlərin bir çox cəhətlərinə aiddir... O, təkcə dinlərin bir-birinə dözümlülüyü deyil, həm də bir-birinin adətlərinə, mənəviyyatına dözümlülük, mədəniyyətlərə dözümlülük deməkdir.

***

Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, başqası da - bütünlükdə hamısı azərbaycanlıdır.

***

Azərbaycan Respublikası çoxmillətli bir dövlətdir. Azərbaycanda müsəlmanlarla yanaşı, başqa dinlərə mənsub olan vətəndaşlar da yaşayır. Azərbaycan müstəqil, demokratiya prinsiplərinə mənsub olan bir dövlət kimi öz ərazisində yaşayan bütün xalqlara, bütün millətlərə dinindən, dilindən, irqindən, siyasi mənsubiyyətindən asılı olmayaraq azadlıq, hürriyyət imkanları verir.

**Heydər Əliyev,**
*Azərbaycan xalqının ümummilli lideri*

Multikulturalizm Azərbaycanın dövlət siyasəti və həyat tərzidir... Bu gün Azərbaycan artıq dünyada tanınmış multikulturalizm mərkəzlərindən biridir.

***

Azərbaycan həm Avropa Şurasının, eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatının üzvü kimi multikulturalizmi bir missiya kimi öz üzərinə götürmüşdür. Biz hesab edirik ki, multikulturalizmin müasir dünyada alternativi yoxdur. Multikulturalizmin alternativi yalnız ayrı-seçkilik, irqçilik, ksenofobiya, islamafobiya və antisemitizm ola bilər.

***

...Azərbaycan sivilizasiyaların, mədəniyyətlərin və dinlərin kəsişməsində yerləşir. Biz Avropa və Asiya arasında yerləşirik. Əlbəttə ki, bu coğrafi yerləşmə Azərbaycanın mədəni müxtəlifliyində öz rolunu oynamışdır. Əsrlər boyu bütün mədəniyyətlər, dinlər və etnik qrupların nümayəndələri Azərbaycanda sülh və ləyaqət şəraitində bir ailə kimi yaşamışlar...

***

Dinindən, dilindən, irqindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşları eyni hüquqlara malikdirlər və bu hüquqlar qorunmalıdır.

***

Azərbaycanda hökm sürən ictimai-siyasi quruluşdan asılı olmayaraq, bütün dövrlərdə Azərbaycan dözümlülük, tolerantlıq məkanı olmuşdur. Bu gün müstəqil Azərbaycan öz siyasətini bu möhkəm təməl üzərində qurur.

***

Öz dininə hörmət başqa dinə hörmətdən başlayır. Multikulturalizm ayrı-seçkiliyə yol vermir, əksinə, bütün xalqları birləşdirir. Eyni zamanda, hər bir ölkənin öz qaydaları, öz ənənələri vardır.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Azərbaycanın bütün vətəndaşları dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, əsas insan hüquq və azadlıqlarına malikdirlər. Qürurverici faktdır ki, Azərbaycan dünya ölkələri üçün tolerantlıq örnəyi hesab olunur və bir çox dövlətlər bizim təcrübəmizdən yararlanmağa çalışırlar.

***

Bakı unikal şəhərdir. Artıq uzun müddətdir ki, burada müsəlman məscidi və atəşpərəst məbədi, katolik kilsəsi və sinaqoq, pravoslav məbədi və kirxa yanaşı mövcuddur. Onların coğrafi yaxınlığı faktı belə, yüksək tolerantlıq şəraitində birgə fəaliyyətin mümkünlüyünü nümayiş etdirir və hər bir dinin əsas dəyərlərinin ümumbəşəri dəyərlərlə üst-üstə düşdüyünü təsdiq edir.

***

Öz mədəniyyətinə, öz tarixinə, öz ənənələrinə, öz əməllərinə hörmətlə yanaşan xalq, gərək eyni şəkildə fərqli mədəniyyətlərə də, fərqli tarixə də hörmətlə yanaşsın.

**Mehriban Əliyeva,**
*Heydər Əliyev Fondunun prezidenti, millət vəkili,*
*UNESCO və İSESKO-nun xoşməramlı səfiri*

Azərbaycanda - bu qədim torpaqda həmişə müxtəlif millətlərə, mədəniyyət və ənənələrə məxsus insanlar yaşamışlar. Onların hər biri öz töhfəsini vermiş və tarixdə öz izini qoymuşdur. Bu gün ölkəmizdə xristianlar, müsəlmanlar və yəhudilər sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Tolerantlıq anlayışı xalqımız üçün hər hansı nailiyyət deyildir: bu, normadır, bu, həyat tərzidir, biz heç vaxt başqa cür yaşamamışıq. Tolerantlıq, qonaqpərvərlik, dözümlülük ənənələri xalqımız tərəfindən qayğı ilə qorunub saxlanılır, daha doğrusu, bu, Azərbaycan xalqının ən böyük sərvətidir. Azərbaycan beynəlxalq dialoqu, mədəni dialoqu dəstəkləyir.

**Leyla Əliyeva,**

*Heydər Əliyev Fondunun vitse-prezidenti*

Polietnik cəmiyyətdə vətəndaş millətçiliyi daxili birliyə malik olmuş Azərbaycan cəmiyyətinin ətraf mühiti qavraması üsuludur. Mədəni və etnik birliyə nail olmayan dövlət tolerantlıq olmadan sabitliyini təmin edə və normal inkişaf edə bilməz...

**Ramiz Mehdiyev,**
*Azərbaycan Respublikası Prezidentinin*
*Administrasiyasının rəhbəri, akademik*

Bu gün Azərbaycan multikulturalizm siyasəti və bu sahədəki uğurları ilə dünyanın bir çox ölkələrinə, o cümlədən tarixən zəngin təcrübəsi ilə tanınan Qərb ölkələrinə nümunədir. Qətiyyətlə demək olar ki, Azərbaycan multikulturalizmi ölkəmizin siyasi simasının əsas cizgilərindən birinə çevrilib. Azərbaycan multikulturalizminin siyasi banisi məhz bunu istəyirdi.

***

...Azərbaycan tarixini, ədəbiyyatını, mədəniyyətini, azərbaycançılıq məfkurəsini, tolerantlığı bir yerə toplayıb sistemləşdirmək və dünyaya nümayiş etdirmək ən mühüm vəzifəmizdir...

**Kamal Abdullayev,**
*Azərbaycan Respublikasının millətlərarası,*
*Multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri, akademik*

Multikulturalizm dünyada tolerantlığa, dözümlülüyə, dövlətlərarası etibarlı münasibətlərə və bütövlükdə demokratik prinsiplərin beynəlxalq münasibətlərdə bərqərar olunmasına xidmət edir. Müxtəlif mədəniyyətlərə və milli-dini azlıqlara hörmət Azərbaycan xalqının milli xüsusiyyətidir. Artıq dünyada multikulturalizm sahəsində ən optimal model kimi Azərbaycan nümunəsi öyrənilir.

**Əbülfəs Qarayev,**
*Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri*

Fəxrlə qeyd edə bilərəm ki, Azərbaycan bu gün güclü dövlət quruculuğu istiqamətində möhkəm təməllər üzərində irəliləyir və bu dayaqlardan biri, bəlkə də birincisi xalqımızın öz milli-mənəvi dəyərlərinə bağlılığıdır.

**Mübariz Qurbanlı,**
*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri*

Məhz Azərbaycanda dini sahəyə münasibətdə yürüdülən müdrik siyasətin nəticəsidir ki, dünya ictimaiyyəti, o cümlədən nüfuzlu beynəlxalq təşkilatlar, habelə dünya miqyasında tanınmış dini liderlər ölkəmizin sülhpərvərliyini, tolerantlığını, başqa dinlərə dialoqa hazırlıq ruhunu etiraf edir, bunu yüksək dəyər kimi qiymətləndirirlər.

**Şeyxülislam Hacı Allahşükür Paşazadə,**
*Qafqaz Müsəlmanları İdarəsinin sədri*

Bu gün Azərbaycan dünyanın nadir ölkələrindəndir ki, burada ayrı-ayrı millətlərin, xalqların, dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Ölkəmizdə dini və milli dözümlülük, tolerantlıq yüksək səviyyədədir və tarixən formalaşan bu tolerantlıq Azərbaycan cəmiyyətini səciyyələndirən gözəl bir ənənəyə çevrilib...

**Elmira Süleymanova,**
*Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman)*

Dözümsüzlüyün artması, tolerantlığın azalması və ksenofobiyanın nələrə səbəb olduğunu görməyimiz üçün dünyada bir çox örnəklər var və biz onlardan dərs almalıyıq. Azərbaycan müxtəlif millətlərə və dinlərə məxsus insanların birgə mehriban yaşadığı bir ölkə, Şərqlə Qərb, Qərblə islam dünyası arasında bir körpü olaraq mədəniyyətlər və sivilizasiyalararası dialoqa böyük önəm verir. Bu gün Azərbaycan əsl dialoq məkanına çevrilir. Bütün bunlar mənim ölkəmin bütün dinlərə və mədəniyyətlərə yüksək ehtiram bəsləməsindən xəbər verir və dövlətimiz bu istiqamətdəki fəaliyyətini gələcəkdə də davam etdirəcəkdir.

**Qənirə Paşayeva,**
*millət vəkili*

Yəhudilərə münasibətdən, onların yaşamından deyə bilərəm ki, Azərbaycan dövləti qədər nə MDB məkanında, nə də bütövlükdə dünya miqyasında tolerantlıq nümunəsi ola biləcək dövlət yoxdur. Həm konstitusiya yolu ilə, həm də cəmiyyətin özünün ənənələri ilə bütün millətlərə bir dözümlülük nümayiş etdirilir. Bütün millətlərin nümayəndəsi Azərbaycanda özünü doğma hesab edə bilir.

**Yevda Abramov,**
*millət vəkili*

Azərbaycanda dini zəmində qarşıdurma heç vaxt olmayıb və olmayacaq. Ona görə ki, dinc-yanaşı yaşamaq bizim qanımızdadır. Bildiyiniz kimi, ölkəmizdə müxtəlif konfessiyaların və millətlərin nümayəndələri bir ailə kimi yaşayır. Bu gün dünyada qəddarlıq və nifrət müşahidə edirik. Eyni bir dinin nümayəndələri yalnız həmin dinin müxtəlif məzhəblərinə mənsub olduqlarına görə bir-birini öldürür. Azərbaycan isə bütün dünya birliyi üçün gözəl nümunədir.

**Milix Yevdayev,**
*Azərbaycan dağ yəhudiləri dini icmasının başçısı*

Bu gün Azərbaycanda müxtəlif dinlərin hamısı bərabər hüquqlara malikdirlər. Bu, sənədlərdə deyil, əməllərdə də təsdiq olunur. Bir sıra ölkələrlə müqayisədə Azərbaycanda dini münaqişələr baş vermir. Biz buna görə ölkə prezidentə minnətdarıq, bütün bunlar onun sayəsində baş tutur. Azərbaycanda indiyədək

hər hansı dini problem, münaqişə olmayıb. Bütün bunlar ölkədə multikulturalizmin olmasına bir nümunədir.

**Aleksandr İşein,**
*Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu*

Azərbaycan dünyəvi dövlətdir. Respublikada din dövlətdən ayrıdır. Prezident bu dövlətin və respublikanın bütün əhalisinin başçısıdır. Onun vəzifəsi ölkənin bütün vətəndaşlarına - həm dindarlara, həm də ateistlərə qayğı göstərməkdir. Fikrimcə, bütün cəmiyyət üçün xeyirlidir ki, Azərbaycan Prezidenti müasir cəmiyyətdə dini və ənənəvi dəyərlərin rolunu nəzərə alır. Dövlət başçısı bilir ki, əsl din təkcə ayrı-ayrı şəxslərə kömək etməklə yanaşı, həm də bütün cəmiyyətin inkişafına öz müsbət töhfəsini verir. Ölkədə elə şərait yaradılmışdır ki, dini icmalar öz fəaliyyətlərini maneəsiz həyata keçirir, dindarlar isə ehtiyac duyduqları mənəvi dəstəyi ala bilirlər. Ölkəmizdə katoliklər üçün də münbit şərait yaradılmışdır. Mən milliyyətcə slovakam. Bir neçə ildir ki, Azərbaycanda yaşayıram və işləyirəm. Buna görə də Azərbaycandakı ümumi və dinlərarası münasibətlər barədə rəy bildirə bilərəm.

**Vladimir Fekete,**
*Roma-Katolik Kilsəsinin Azərbaycandakı apostol prefekturasının ordinarisi*

Tolerantlıq - dözümlülük və multikulturalizm - çoxmədəniyyətlilik haqqında Azərbaycan modeli bütün dünyaya örnək və nümunədir. Sözügedən sahələrdə çox dərin məna, məzmun və mündəricə kəsb edən, kəlam xarakterli, mahiyyətli bu fikirlər Azərbaycan xalqının dünya şöhrətli ictimai, siyasi və dövlət xadimləri olan Ulu Öndərimiz Heydər Əliyevin və dövlətimizin başçısı, möhtərəm Prezidentimiz İlham Əliyevin çoxcəhətli, çoxşaxəli, titanik fəaliyyətlərində mühüm yer tutmuş və bu gün də tutmaqdadır.

**Mixail Zabelin,**
*Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi Himayəçilik Şurasının üzvü, millət vəkili*

Azərbaycan qədim zamanlardan müxtəlif dinlərin, dini cərəyanların qovuşduğu, sülh və əmin-amanlıq şəraitində yaşadığı bir məkandır. Azərbaycan xalqının digər din və mədəniyyətlərə dözümlü münasibət bəsləməsinin bir çox səbəbləri var. Bu yanaşma Azərbaycan xalqının təbiətindən, insanpərvərliyindən və xoş məramından irəli gəlir. Bu humanist ənənə bu gün də qorunub saxlanılır, respublikada sinaqoq və kilsələr məscidlərlə yanaşı fəaliyyət göstərir, insanlar dini ayinlərini sərbəst yerinə yetirirlər. Odlar yurdunda bu gün azəri türkləri ilə bərabər, dağ yəhudiləri, tatlar, talışlar, kürdlər, molokanlar, saxurlar, avarlar, ləzgilər, qrızlar, udilər kimi etnik qruplar yaşayır. Mən udi xalqının

nümayəndəsiyəm. Azərbaycanda tarixən bərqərar olmuş tolerant cəmiyyət, milli və dini ayrı-seçkiliyə yol verilməməsi burada məskunlaşmış azsaylı xalq və etnik qruplara, o cümlədən udilərə öz varlığını qoruyub saxlamağa əlverişli mühit yaradılıb. Udi xalqı Azərbaycanın köklü, aborigen azsaylı xalqlarından biridir. Bu etnos qədim Qafqaz Albaniyasının Uti əyalətində, XIX əsrdə isə Nuxa (indiki Şəki rayonu) bölgəsinin bir neçə yaşayış məskənində məskunlaşıb. Hazırda isə Qəbələ rayonunun Nic kəndində və qismən də Oğuz rayonunda udi xalqının minə yaxın nümayəndəsi yaşayır.

**Robert Mobili,**
*Alban-udi xristian icmasının sədri*

Talışlar ad günlərini, toyları, bayramları öz ana dillərində, doğma musiqi sədaları altında keçirir. Toylarda Azərbaycan türkləri və digər xalqlar məmnuniyyətlə talış musiqisinin sədaları altında oynayır. Ləzgi və digər xalqların toyları da eynilə.

Amma dövlətin ölkədə yaşayan etnosların mədəniyyətinin və dilinin inkişafında rolu vacibdir. Etnik münasibətlər dövlətin onurğasıdır. 2000-ci illərin əvvəllərində etnik məsələlərə özbaşına buraxıldı. Ötən ay Kamal Abdullanın rəhbərliyi altında Azərbaycan Prezidenti yanında millətlərarası münasibətlər, multikulturalizm və din üzrə müşavir institutunun bərpa olunması böyük ümidlər yaratdı. Əvvəl etnik məsələdən bir qorxu vardı. K.Abdulla isə məsələnin üstünə cəsarətlə gedir. Məsələn, Kamal müəllim “Cənub” TV-də talış dilində verilişlərin olmasını dəstəkləyib.

**Mehdibəy Səfərov,**
*Azəri-talış ictimai birliyinin sədri*

ADU

# KİTABLAR

## I Bölmə
## Azərbaycançılıq ideologiyası - milli birliyin əsası kimi

### 1997

**1. Əliyev, Heydər.** Müstəqillik yolu: seçilmiş fikirlər /Heydər Əliyev; burax. məsul R.Mehdiyev; tərt. ed.: Ş.Əsgərov, S.Xəlilov; red. Ə.Həsənov- Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1997.- 136 s.

*Kitabın içindəkilər:* Ön söz; Dövlətçilik; Ordu quruculuğu; İqtisadiyyat; Mədəniyyət; Tarix; Mənəvi tərbiyə; Dil; Milli münasibətlər; Vətənpərvərlik; Özü haqda; Görkəmli ziyalılar haqda; Mündəricat.

### 1998

**2.** Azərbaycanın Türkçülük və Azərbaycançılıq problemləri: Azərbaycan Araşdırmaları Vəqfinin 25-26 aprel 1997-ci ildə "Azərbaycanın Türkçülük və Azərbaycançılıq problemləri" mövzusunda keçirdiyi elmi-nəzəri konfransının materialları /Azərbaycan Araşdırmaları Vəqfi; red. S.Hacı; ön söz. Ə.Kərimov.- Bakı: Ay-Ulduz, 1998.- 160 s.

### 2001

**3. Əbilov, A.** Avropa Şurası və Azərbaycan /Ataxan Əbilov; elmi red. A.Rəcəbli; xüsusi red. V.Qardaşlı; naşir Qoşqar Qarayev.- Bakı: Qapp-Poliqraf, 2001.- 100 s.

**4. Əsgərov, Ş**. Milli birlik probleminə fəlsəfi baxış /Şahlar Əsgərov.- Bakı: [n. y.], 2001.- 22 s.

Kitabçada təqdim olunan material "Azərbaycan" qəzetinin 31 oktyabr və 1 noyabr 2001-ci il tarixli nömrələrində çap olunmuşdur. Materialda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "birlik" fenomeni ilə bağlı söylədiyi fikirlərdən istifadə edilmişdir.

### 2002

**5. Abbasov, A.** Milli dövlətçilik məfkurəsi və layiqlik: Genezis və təkamül /Aydın Abbasov; elmi red. Ş.Məmmədov.- Bakı: Bakı Universiteti, 2002.- 251 s.

Kitab Türk dövlətlərinin genezisinə, müasir dövrdə milli dövlətçilik, azərbaycançılıq və türkçülük prinsiplərinə, milli siyasət və milli hədəf və s. məsələlərə həsr olunmuşdur.

**6. Azərbaycançılıq - birliymizin əsasıdır**: 2001-ci il noyabrın 9-10-da

Bakıda keçirilmiş Dünya Azərbaycanlıların I Qurultayında və "Gülüstan" sarayındakı rəsmi qəbulda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi.- Bakı: Azərbaycan nəşriyyatı, 2002.- 34 s.

**7. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi** /elmi red. və ön sözün müəl. R.Mehdiyev; müəllif-tərtibçi S.Xəlilov.- Bakı: Azərbaycan Universiteti, 2002.- 232 s.

Kitab Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ideyaları əsasında formalaşan azərbaycançılıq təliminin elmi-nəzəri və ideoloji bir sistem kimi şərhinə həsr olunmuşdur.

**8. Orucov, H.** Heydər Əliyev və Azərbaycanda milli siyasət /Hidayət Orucov; elmi red. Ə.Abdullayev; ingilis dilinə tərc., red. S.Seyidov.- Bakı: Şərq-Qərb, 2002.- 171 s.

**9. Vəliyeva, S.** Azərbaycançılıq milli ideologiya və ədəbi-estetik təlim kimi: məsələnin qoyuluşuna dair /Sona Vəliyeva; elmi red. Y.Qarayev.- Bakı: Azərbaycan Universiteti, 2002.- 140 s.

Kitabda azərbaycançılığın milli ideologiyaya və ədəbi-estetik təlimə çevrilməsinin tarixi zəmini işlənmiş, milli-mənəvi və ideya-siyasi əsaslarını təşkil edən azərbaycançılığın mürəkkəb prosesi araşdırılır.

**2003**

**10. Anar.** Azərbaycançılıq haqqında düşüncələr /Anar; Azərb. dilindən tərc. S.Məmmədzadə.- Bakı: Nurlan, 2003.- 90 s.

**11. Azərbaycanda mədəniyyət siyasəti** /Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi; kitabı hazırl.: S.Məmmədəliyeva, N.Axundova.- Bakı: Nağıl evi, 2003.- 232 s.

**12. Babayev, X.** Azərbaycançılıq, elmi-dini maarifçilik, mənəvi özünüdərk nümunəsi /Xanəli Babayev; elmi red. N.Abdullayev; naşiri M.Borçalı.- Bakı: Borçalı NPM, 2004.- 144 s.

**13. Məmmədov, A.** Cəlil Məmmədquluzadə yaradıcılığında Azərbaycançılıq /Allahverdi Məmmədov; elmi red. İ.Həbibbəyli; red. C.Məmmədli; AMEA, Nizami ad. Ədəbiyyat İnstitutu.- Bakı: Elm, 2003.- 190 s.

**14. Orucov, H.** Heydər Əliyev və Azərbaycanda milli siyasət /Hidayət Orucov; elmi red. Ə.Abdullayev; red. R.Kaişauri; gürcü dilinə tərc. ed. İ.Məmmədli.- Tbilisi: İntellekt, 2003.- 171 s.

*Kitabın içindəkilər:* Milli lider ehtiyacı, şəxsiyyət - lider birləşməsi amil kimi, milli dövlətçiliyimizin memarı, lobbi quruculuğu və ümummilli lider amili, Dünya Azərbaycanlılarının I Qurultayı (9-10 noyabr 2001-ci il).

**15. Vəliyeva, S.** Milli dövlətçilik hərəkatının yüksəlişi və Xalq Cümhuriyyəti dövründə Azərbaycançılıq ideyası /S.Vəliyeva; elmi red. N.Cəfərov.- Bakı: Azərbaycan, 2003.- 128 s.

**16. Yusifov, M.** Heydər Əliyev və Azərbaycançılıq ideologiyası: Heydər

Əliyev məktəbinin dinləyiciləri üçün vəsait /Mübariz Yusifov; burax. məs. və red. Q.M.Əliyev.- Bakı: Nurlan, 2003.- 203 s.

**2004**

**17. Babayev, X.** Azərbaycançılıq, elmi-dini maarifçilik, mənəvi özünüdərk nümunəsi /Xanəli Babayev; elmi red. N.Abdullayev; naşiri M.Borçalı.- Bakı: Borçalı NPM, 2004.-144 s.

**2005**

**18. Cəfərov, N.** Azərbaycanşünaslığın əsasları /Nizami Cəfərov; elmi red. Həmid İmanov.- Bakı: Pedaqogika, 2005.-256 s.

Kitabda Azərbaycan xalqının, dilinin, ədəbiyyatının, mədəniyyətinin formalaşması tarixi barədə sistemli məlumat verilir, azərbaycançılıq ideologiyasının təşəkkül mərhələləri araşdırılır.

**19. Əliyev, Z.** Dünya diasporaları: nəzəriyyə və təcrübə /Zaur Əliyev; məsl.: M.Kərimov, Q.S.Təbrizi; elmi red. Ə.Tağıyev; red. E.İsmayılova.- Bakı: Qismət, 2005.- 349 s.

Kitabda diaspor nəzəriyyəsi ilə yanaşı Azərbaycan, Yəhudi, Türk, Çin, Ərəb, Erməni və digər diasporlar barədə geniş araşdırma aparılıb.

**2006**

**20. Abbasov, Ə.** İdarəetmənin sinergetik fəlsəfəsi: Yeni dialoq naminə /Əbülhəsən Abbasov.- Bakı: MBM, 2006.- 212 s.

Kitabda mürəkkəb sistemlər nəzəriyyəsinə əsaslanan yeni funksional elmi paradiqma prizmasından cəmiyyətin təşkili, təkamülü və idarə olunması problemləri, baş verən transformasion proseslərin xüsusiyyətləri araşdırılır.

**21.** Dünya Azərbaycanlılarının II qurultayı: Bakı - 16 mart 2006 /burax. məsul, ön söz. N.İbrahimov; tərt.: N.Qurbanov, R.Hüseynov, E.Miraləm.- Bakı: Çaşıoğlu, 2006.- 191 s.

**22. Xəlilov, C.** Milli təhlükəsizlik mənlik şüuru konteksində /Cəlil Xəlilov; elmi red. Əlikram Abdullayev.- Bakı: Vətən, 2006.- 220 s.

**23. Heydər Əliyev və Azərbaycançılıq**: Qusarda, Lənkəranda və Şəkidə keçirilmiş bölgə müşavirlərinin materialları /tərtibçi və red. M.Talıblı; burax. məsul H.Orucov.- Bakı: Master. Masterprint, 2006.- 186 s.

**24. Məmmədəliyeva, S.** Qloballaşma dövründə mədəniyyətin fəlsəfi aspekt-
ləri /Sevda Məmmədəliyeva; tərc. ed. O.Qəbələli.- Bakı: Nurlar, 2006.- 224 s.

Kitab qloballaşma dövründə Azərbaycan mədəniyyətinin inkişafının fəlsəfi dərkinə həsr edilmişdir. Azərbaycan mədəniyyətinin özəlliklərinə, bu mədəniyyətdə ənənəvilik və açıqlığın, varislik və gələcəyə səmtlənmənin üzvi şəkildə birləşməsi məsələlərinə xüsusi diqqət yetirilir.

**25. Şəmsizadə, N.** Azərbaycançılıq: Azərbaycan xalqının milli ideologiyası /Nizaməddin Şəmsizadə; red. K.Talıbzadə.- Bakı: Nurlar, 2006.- 192 s.

**2007**

**26. Aslanova, R.** XXI əsr: Yeni mədəniyyət məkanına inteqrasiya /Rəbiyyət Aslanova.- Bakı: Nurlan, 2007.- 440 s.

Kitab yeni yüzillikdə hansı mədəniyyət məkanında yaşadığımız, inteqrasiyanın nə kimi mədəni-mənəvi faktorlarla şərtləndiyini ətraflı təsəvvür etmək istəyən geniş oxucu auditoriyasına ünvanlanmışdır.

**27. Humanizm və xeyirxahlıq missiyası** /İdeyanın və ön sözün müəl. Ə.Eyvazov; emi red. S.Eyvazova; tərt. S.Hüseynov.- Bakı: Nurlan, 2007.- 174 s.

Kitabda cəmiyyətdə mərhəmət və xeyirxahlığın ali ünvanına çevrilmiş Heydər Əliyev Fondunun qarşıya qoyduğu hər bir xoş məramdan söhbət açılır.

**28. Xoşməramlı səfir** /tərtibçi Ş.Əhmədov; elmi red. A.Naxçıvanlı; rəy.: L.Məmmədova, M.Qəfərov.- Bakı: Şəms, 2007.- Kitab 5.- 160 s.

Kitabda YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban Əliyevanın Azərbaycan elminin, təhsilinin və mədəniyyətinin inkişafı sahəsində gördüyü işlər, ölkəmizi beynəlxalq aləmdə yüksək səviyyədə təmsil etməsi və xeyriyyəçilik fəaliyyəti ilə bağlı məqalələr toplanmışdır.

**29. Mədəniyyətimizin və mədəni incilərimizin hamisi:** Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, MM-in deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın mədəniyyət sahəsində fəaliyyəti. Dövri mətbuat materialları əsasında tərtib edilmişdir (1995-2007) /tərt. və elmi red. S.Məmmədəliyeva; layih. müəl. L.Kazımova; Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi; AMŞ - Beynəlxalq Musiqi Şurası; Azərbaycan Milli Komitəsi.- Bakı: Nurlar, 2007.- 424 s.

**2008**

**30. Heydər Əliyev və mədəniyyət**: Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar: 3 clddə /layih. rəhb. və ön sözün müəl. Ə.Qarayev; tərt. ed.: S.Məmmədəliyeva, T.Əhmədov; red. L.Məmmədova.- Bakı: Nurlar, 2008.- C.I: 1969-1982, 1993-1996.- 504 s.

Kitaba Heydər Əliyevin sovet hakimiyyəti illəri Azərbaycana rəhbərlik dövründə və müstəqil Azərbaycan Respublikasının prezidenti seçildiyi ilk illərdə sənət adamları, yazıçılar və elm xadimləri ilə çoxsaylı görüşləri zamanı çıxışları, nitqləri və dəyərli tövsiyələri daxil edilmişdir.

**31. Heydər Əliyev və mədəniyyət**: Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar: 3 cilddə /layih. rəhb. və ön sözün müəl. Ə.Qarayev; tərt. ed. S.Məmmədəliyeva, T.Əhmədov; red. L.Məmmədova.- Bakı: Nurlar, 2008.-

C.II: 1997-1998.- 520 s.

Kitabın ikinci cildində ulu öndərin Azərbaycanın mədəniyyət, ədəbiyyat və elm xadimləri ilə keçirdiyi tarixi görüşlərini, ədəbi-mədəni irsə, maddi-mədəni abidələrə qayğısını əks etdirən materiallar, habelə tövsiyələri, nitq və çıxışları toplanmışdır.

**32. Heydər Əliyev və mədəniyyət:** Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar: 3 cilddə /layih. rəhb. və ön sözün müəl. Ə.Qarayev; tərt. ed.: S.Məmmədəliyeva, T.Əhmədov; red. L.Məmmədova.- Bakı: Nurlar, 2008.- C.III: 1999-2003.- 536 s.

Kitabda Heydər Əlirza oğlu Əliyevin 1999-2003-cü illərdə ədəbiyyat, mədəniyyət, incəsənət, elm, din və idman xadimləri ilə görüşləri, müsahibələri, tövsiyələri, milli-mənəvi dəyərlərə verdiyi yüksək qiymət barədə materiallar toplanmışdır.

**33. Mahmudov, Y.** Azərbaycanlılar: etnik-siyasi tarixə ümumi baxış /Y.Mahmudov; red. Y.Gözəlova; rus dilinə çevirənlər: G.Məmmədova, İ.Niftəliyev; ing. dilinə çevirən Ə.Ağabəyova.- Bakı: Aspoliqraf, 2008.- 60 s.

Kitabda dünya tarixində dərin iz qoymuş və zəngin mədəniyyət yaratmış Azərbaycan xalqının etnik-siyasi tarixinə qısa nəzər salınır.

**34. Mehdiyev, R.** Yeni siyasət: inkişafa doğru /Ramiz Mehdiyev; ön söz müəl. R.Aslanova; burax. məsul və tərt. ed. B.Sadıqov.- Bakı, 2008.- C.I.- 581 s.

Əsərdə ölkəmizdəki sosial-iqtisadi tərəqqi, baş verən mütərəqqi siyasi dəyişikliklər, aparılan hüquqi-demokratik islahatlar konseptual şərh edilmiş, ulu öndər Heydər Əliyev irsinin milli inkişaf strategiyasına çevrilməsi və bu siyasi xəttin Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsi əsaslandırılmışdır.

**2009**

**35. Xəlilov, S.** Sivilizasiyalararası dialoq /Səlahəddin Xəlilov.- 2-ci nəşr.- Bakı: Adiloğlu, 2009.- 255 s.

Kitab vahid ümumbəşəri sivilizasiya ideyasına, Şərq və Qərb sivilizasiyaları, habelə lokal sivilizasiyalar arasında qarşılıqlı əlaqəyə, onların toplanması və ya qarşıdurması hallarının araşdırılmasına həsr olunmuşdur. Əsərdə müxtəlif sivilizasiyaların üstün əlamətləri, onlar üçün spesifik olan ictimai təşkilatlanma formaları, coğrafi-siyasi və mədəni-mənəvi müəyyənlik məsələləri nəzərdən keçirilmişdir.

**36. ilham Əliyevin 5 illik prezidentlik fəaliyyəti və Azərbaycanda vətəndaş cəmiyyəti**: sosioloji tədqiqat: noyabr-dekabr, 2008 /Azərb. Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası; red. C.Cabbarlı; layih. rəhb. E.Süleymanov.- Bakı: AVCİYA, 2009.- 188 s.

Kitabda ailələrin sosial rifah halı və gəlirlərin səviyyəsi, daxili siyasət, xarici siyasət, söz və mətbuat azadlığı, Dağlıq Qarabağ, milli və dini tolerantlıq

və s. mövzular verilmişdir.

2010

**37. Azərbaycanın dünya birliyinə inteqrasiyası:** Mədəniyyətlərin İpək Yolu: konfrans materialları /elmi red. N.Cəfərov; red. S.Süleymanlı; burax. məs. R.S.Ulusel (Xəlilov); Qlobalistika və Sivilizologiya Elmi Araşdırmalar İctimai Birliyi.- Bakı: Sabah, 2009.- 159 s. Azərbaycan, rus və ingilis dillərində.

Kitab-topluya Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı, "Qlobalistika və Sivilizologiya" Elmi Araşdırmalar İctimai Birliyinin təşkilatçılığı ilə 2009-cu ilin 30 mayında Azərbaycanda Atatürk Mərkəzində keçirilmiş konfransın materialları daxil edilmişdir.

**38. İnkişafın Azərbaycan modeli** /ideya müəl. və ön sözün müəl. R.Mehdiyev; red. Ə.Həsənov; buraxılışa məsul B.Sadıqov.- Bakı: ["Azərbaycan" qəzeti], 2010.- 204 s.

Kitabda 1994-2009-cu illərdə iqtisadi sahədə keçid dövrünü təmin edən əsas sosial-iqtisadi hadisələrə, ulu öndər Heydər Əliyev və onun layiqli siyasi varisi cənab İlham Əliyev tərəfindən verilən sərəncam və fərmanlara, təsdiq olunan dövlət proqramlarına, digər qanunvericilik aktlarına nəzər salınmışdır.

**39. Prezident İlham Əliyev və mədəniyyət, 2003-2008:** 2 cilddə /Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi; layih. rəhb. və baş məsl. Ə.Qarayev; burax. məsul: T.Mehdiyev, S.Məmmədəliyeva, Ə.Vəliyev; tərt.:
L.Məmmədova, M.Əhmədov; elmi məsl.: T.Əhmədov, Ə.Eyvazov.-Əlavə və dəyişiklilkərlə 2-ci nəşri.-Bakı: İdeal-Print, 2010.- C.I: Qəbullar, nitqlər, cıxışlar, görüş və mərasimlər, səfərlər, müşahidələr.- 506 s.

**40. Prezident İlham Əliyev və mədəniyyət, 2003-2008**: 2 cilddə /Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi; layih. rəhb. və baş məsl. Ə.Qarayev; burax. məsul: T.Mehdiyev, S.Məmmədəliyeva, Ə.Vəliyev; tərt.: L.Məmmədova, M.Əhmədov; elmi məsl.: T.Əhmədov, Ə.Eyvazov.- Əlavə və dəyişiklilkərlə 2-ci nəşri.- Bakı: İdeal-Print, 2010.- C.II: Təbriklər, qanunlar, fərmanlar, sərəncamlar.- 568 s.

**41. Ümummilli lider Heydər Əlirza oğlu Əliyevin irsi və milli ideologiyanın formalaşması məsələləri:** 2010-cu il mayın 5-də keçirilmiş ümumrespublika elmi-nəzəri konfransının materialları /AMEA, Fəlsəfə, Sosiologiya və Hüquq İn-tu; Naxçıvan Dövlət Un-ti; Heydər Əliyev ad. Beynəlxalq Azərbaycan Forumu; red. hey.: İ.Məmmədzadə, İ.Həbibbəyli, Ə.Tağıyev.- Bakı: Elm və təhsil, 2010.- 422 s.

**42. Yusifov, M.** Azərbaycançılıq /Mübariz Yusifov; red. İ.İsmayılov; YAP, Gəncə Şəhər Təşkilatı.- Bakı: Elm və Təhsil, 2010.- 130 s.

Kitabda azərbaycançılıq ideyalarının ümumi prinsipləri barədə bəhs olunur. Azərbaycançılıq ideyaları özündə tarixliyi və müasirliyi, ənənə və varisliyi, ictimai psixologiyanı və etnik təfəkkürü birləşdirir. Kitabda azərbaycançılıq ideya-

ları məhz tarixlə müasirliyin qovşağında izah edilir.

**2011**

**43. Əliyev, İlham.** XXI əsrin Humanitar Çağırışları /İlham Əliyev, D.Medvedyev; ümumi red.: R.Mehdiyev, S.Narışkinin.- Bakı: Moskva, Терра: НТар-Тасс, 2011.- 247 s.

Kitabda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedyevin ümumbəşəri dəyərlər, demokratiya, hüquq, elm və təhsil, mədəniyyət, humanizm və beynəlxalq siyasət mövzusunda məqalələri və çıxışları toplanmışdır.

**44. Heydər Əliyev və Azərbaycanın müasirləşmə strategiyası:** [konfrans materialları] /Yeni Azərbaycan Partiyasının İcra Katibliyi.- Bakı: Azərnəşr, 2011.- 950 s.

Kitaba Azərbaycanın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev və Azərbaycanın müasirləşmə strategiyası" mövzusunda keçirilən konfransın materialları daxil edilmişdir.

**2012**

**45. Orucov, Ə**. Azərbaycan xalqı milli özünüdərk yollarında: XIX əsrin sonu - XX əsrin əvvəlləri: tarixi-fəlsəfi aspekt /Əliyar Orucov; elmi red. A.Ə.Hacıyeva; rəyçi.: İ.Rüstəmov; S.Hüseynov; A.Bəşirov; AMEA, Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu.- Bakı: Avropa, 2012.- 251 s.

Monoqrafiya XIX əsrin sonu - XX əsrin əvvəllərində yaşayan Azərbaycan mütəfəkkirlərinin ictimai-siyasi və fəlsəfi görüşləri kontekstində onların milli mənlik və milli özünüdərk haqqında baxışlarının obyektiv şəkildə cəmiyyətə çatdırılması baxımından elmi-nəzəri və praktik əhəmiyyət kəsb edir.

**46. Yusifov, M.** Nizamidə Azərbaycançılıq: Nizami 870 /M.Yusifov; elmi red. İ.Həbibbəyli; rəyçi N.Cəfərov.- Bakı: Elm və təhsil, 2012.- 167 s.

